**Səmimiyyət heykəli**

Fevral ayının 18-də sevimli şairimiz Nəriman Həzənzadənin 80 yaşı tamam oldu. Mən Nəriman müəllim haqqında “sevimli şairimiz” dedim. Əslində, demək olar ki, əksəriyyət şairlər haqqında belə deyirlər. Kimi hörmət xətrinə, kimi də xoşuna gəlsin deyə. Amma Nəriman Həsənzadə haqqında “sevimli şairimiz” ifadəsini işlətməmək, sadəcə, günah olardı. O, doğrudan da hamının sevdiyi, hamının məhəbbətlə, sevərək oxuduğu, ən lirik şairlərimizdən biridir.

2009-cu ildə mən “Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Serqey Yesenin” adlı kitabım üzərində işləyərkən, kitaba redaktorluq etməsi üçün Nəriman Həsənzadəyə müraciət etdim. Ciddi etiraz etmədi, kitabı istədi. Kitabın əlyazmasını ona verdim. Təxminən 10 gün sonra bir axşam Nəriman müəllim mənə telefon etdi: “Qurban sənə, İsaxan, kitabını oxudum, mən böyük məmnuniyyətlə bu kitaba redaktorluq da edəcəm, ön söz də yazacam. Yesenini mən də ürəkdən sevirəm”. Nə ön söz, Nəriman Həsənzadə bu kitaba “Yesenin - Puşkindən sonrakı Rusiyadır” adlı bir giriş məqaləsi yazdı. Elə bir məqalə ki, o məqalə adı şəkilən kitaba xüsusi rövnəq verdi, xüsusi gözəllik, şirinlik, ruh gətirdi. Yeri gəlmişkən buna görə Nəriman Həsənzadəyə bir daha təşəkkür edirəm.

İlahi, nə qədər doğma, şirin, səmimi səslənir “qurban sənə” ifadəsi bu insanın, bu şairin, bu şəxsiyyətin dilində. Ümumiyyətlə, başqasının dilindən eşidəndə, heç bir özəlliyi hiss edilməyən, bəzən hətta yersiz, quru, süni görünən sözlər nə qədər doğma səslənir, gözəlləşir, şirinləşir, həlimləşir Nəriman Həsənzadənin dilində. Bunların hamısının kökündə bir şey durur – Nəriman Həsənzadə səmimiyyəti.

Mən səmimiyyətə heykəl bilirəm Nəriman Həsənzadəni!

Bu yazıda məqsədim Nəriman müəllim haqqında fikir söyləmk deyil, sadəcə şairi təbrik etməkdir, deyəsən təbriki də bir az uzatdım. Amma neynəyəsən, söhbət

Nəriman Həsənzadədən gedəndə, axıb tökülmək istəyir kağıza sinəndəki bütün şirin, həzin, doğma sözlər.

Əziz Nəriman müəllim!

Sizi yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm. Nə qədər xoşbəxtəm ki, Sizinlə, az da olsa, səmimi məclislərdə yan-yana oturub, sizin şirin söhbətlərinizə qulaq asmaq mənə nəsib olub. Sizə uzun ömür, möhkəm cansağlığı, poeziya kəhkəşanında yeni-yeni uğurlar arzulayıram.

**Hörmət və səmimiyyətlə, Sizin İsaxan**

***Mənbə:***

***“Kredo” qəzeti, № 8, 26 fevral 2011-ci il. Həmçinin Хязяр-Хябяр, (журнал) № 294, səh.16. Mart, 2011, Хязяр Университяси.***